*ELMİ İŞ Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 20, Sayı: 4, s. 142−150
*SCIENTIFIC WORK International Scientific Journal.* June 2026, Volume: 20, Issue: 4, pp. 142−150
DOI: https://doi.org/10.36719/2663-4619/128/142-150

# Dünya iqtisadiyyatında enerji siyasəti və maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsasları

**Dağbəyi Allahverdiyev[1*], Əli Allahverdiyev[2], Nigar Allahverdiyeva[2], Günel Allahverdiyeva[3], Güldanə Qasımova[3]**

***Xülasə.*** *Tədqiqatda müasir qlobal siyasi-iqtisadi şəraitdə bərpa olunan enerji siyasətinin inkişaf istiqamətləri və bu sahədə maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsasları təhlil edilir. Davamlı iqtisadi artımın təmin olunmasında bərpa olunan enerji mənbələrinin rolu və investisiya prioritetlərinin sabit iqtisadi siyasət əsasında yenidən müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Bərpa olunan enerji siyasəti yalnız ekoloji baxımdan deyil, eyni zamanda makroiqtisadi sabitliyin təmin olunması, enerji təhlükəsizliyinin gücləndirilməsi və uzunmüddətli iqtisadi artımın formalaşdırılması baxımından strateji əhəmiyyətə malikdir.*

*Metodologiya: bu tədqiqatda dünya iqtisadiyyatında enerji siyasətinin və maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsaslarının təhlili kompleks metodoloji yanaşma əsasında həyata keçirilmişdir. Tədqiqatın metodoloji bazasını iqtisadi nəzəriyyənin klassik və müasir yanaşmaları, həmçinin beynəlxalq təcrübə təşkil edir.*

*Tədqiqatın obyekti və predmeti: Tədqiqatın obyekti qlobal enerji siyasəti və bərpa olunan enerji sahəsində mövcud iqtisadi proseslərdir.*

*Tədqiqatın predmeti isə bərpa olunan enerji siyasəti çərçivəsində maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi mexanizmləri, bu prosesin makroiqtisadi sabitliyə və davamlı iqtisadi artıma təsiridir.*

*Tədqiqat metodları: Tədqiqat prosesində aşağıdakı elmi metodlardan istifadə olunmuşdur:*

*Analiz və sintez metodu, enerji siyasəti və maliyyə mexanizmlərinin ayrı-ayrı komponentlərinin təhlili və ümumiləşdirilməsi üçün tətbiq edilmişdir;*

*Müqayisəli təhlil metodu, müxtəlif ölkələrin enerji siyasəti və investisiya göstəricilərinin müqayisəsi məqsədilə istifadə olunmuşdur;*

*Statistik təhlil metodu, qlobal enerji investisiyaları və maliyyə meyarlarının qiymətləndirilməsi üçün tətbiq edilmişdir;*

*Sistemli yanaşma metodu, enerji siyasəti, maliyyə resursları və iqtisadi artım arasında qarşılıqlı əlaqələrin kompleks şəkildə araşdırılmasını təmin etmişdir.*

*İnformasiya bazası: Tədqiqatın informasiya bazasını beynəlxalq təşkilatların hesabatları, rəsmi statistika məlumatları, elmi ədəbiyyat və müxtəlif analitik mənbələr təşkil edir. Eyni zamanda, cədvəllərdə təqdim olunan məlumatlar rəsmi statistik göstəricilər əsasında müəllif tərəfindən ümumiləşdirilmişdir.*

***Açar sözlər:*** *enerji siyasəti, bərpa olunan enerji, maliyyə resursları, davamlı iqtisadi artım, iqtisadi inkişaf, insan rifahı*

---

[1]ARETN-in İqtisadiyyat İnstitutu, iqtisad üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
[2]Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
[3]Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: dagbeycahani@gmail.com
Daxil oldu: 4 Fevral 2026; Qəbul edildi: 3 Mart 2026; Onlayn dərc edildi: 22 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Energy Policy in the World Economy and the Economic Foundations of Mobilizing Financial Resources

**Dagbey Allahverdiyev[1*], Ali Allahverdiyev[2], Nigar Allahverdiyeva[2], Gunel Allahverdiyeva[3], Guldana Gasimova[3]**

***Abstract.*** *This study examines the development directions of renewable energy policy and the economic foundations of mobilizing financial resources in the context of the modern global political and economic environment. The research highlights the growing importance of renewable energy as a key factor in ensuring sustainable economic growth, macroeconomic stability, and long-term energy security. In the context of increasing geopolitical risks and climate change challenges, the transformation of global energy policy has become inevitable. The transition to renewable energy sources is not only an environmental necessity but also an economic priority that contributes to reducing external energy dependence, stabilizing balance of payments, and enhancing investment efficiency.*

*The study emphasizes that the mobilization of financial resources plays a crucial role in supporting renewable energy projects through innovative financial instruments, including green bonds, climate funds, and public-private partnerships. These mechanisms facilitate the allocation of capital toward environmentally sustainable and economically efficient sectors.*

*Furthermore, the research analyzes the role of state regulation, fiscal policy, and institutional frameworks in ensuring effective financial mobilization and sustainable economic development. It is argued that the integration of economic, legal, and political factors strengthens the overall impact of energy policy on social welfare and economic stability.*

*The findings suggest that renewable energy policy, supported by efficient financial mechanisms, significantly contributes to sustainable development by improving economic resilience, fostering innovation, and ensuring environmental balance.*

***Keywords:*** *renewable energy policy, financial resources, sustainable economic growth, green finance, energy security, economic development*

---

[1]ARETN Institute of Economics, PhD in Economics, Baku, Azerbaijan
[2]Baku State University, Baku, Azerbaijan
3Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
[*]Corresponding author. E-mail: dagbeycahani@gmail.com
Received: 4 February 2026; Accepted: 3 Mart 2026; Published online: 22 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Siyasi-iqtisadi səmərəliliyin təmin olunmasını şərtləndirən meyarların və proseslərin tarazlığı mühüm sosial əhəmiyyətə malikdir və müxtəlif nəzəri metodlar vasitəsilə təhlil olunur. Müasir şəraitdə sosial-iqtisadi münasibətlərin tənzimlənməsinin siyasi, iqtisadi və hüquqi əsasları alternativ maliyyə resurslarının səmərəli istifadəsi ilə əlaqədardır. Belə ki, sosial-iqtisadi mülkiyyət münasibətlərinin və bərpa olunan enerji təminatının tənzimlənməsi dövlətin siyasi-iqtisadi kontekstində optimal həlli əsasında balanslaşdırılmalıdır. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi hələ qədim dövrlərdən etibarən cəmiyyətin diqqət mərkəzində olmuş, gəlir bərabərliyi və makroiqtisadi tarazlıq kimi meyarlar əsasında qiymətləndirilmişdir (Allahverdiyev, 2022). İqtisadi bərabərliyin təmin edilməsində bərpa olunan enerji siyasəti maliyyə tarazlığı əsasında iqtisadi artım kontekstində tədqiqi dünyanın geosiyasi reallıqlarının zərurətindən qaynaqlanır. Belə ki, mövcud qlobal iqtisadi siyasət XXI əsrdə bərpa olunan enerji təminatının əsas mərhələsini əks etdirir. Bu kontekstdə geosiyasi

risklər və iqlim dəyişiklikləri ilə bağlı çağırışlar enerji siyasətinin yenidən formalaşdırılmasını zəruri etmişdir (Nuriyev, 2021).

Nəticə etibarilə, bərpa olunan enerji siyasəti maliyyə səmərəliliyinin tərəqqisi iqtisadi artımda yeni modelini formalaşdırır. Qlobal enerji siyasətində alternativ maliyyə mənbələrinin davamlı artıma təsiri dövlət büdcəsi və investisiya siyasətinin prioritet istiqamətləri ilə müəyyən edilir. Bu səbəbdən də bərpa olunan enerji siyasətində davamlı tərəqqinin iqtisadi əsasları və maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsaslarının elmi və praktiki cəhətdən şərhi aktualdır.

Nəzəri yanaşmalar və əsas istiqamətlər isə bərpa olunan enerji siyasətində maliyyə təminatı mərhələli həyata keçirilir. Davamlı iqtisadi tərəqqi, BMT tərəfindən qəbul edilmiş Davamlı İnkişaf Məqsədləri bərpa edilən enerji təminatına əlçatanlığı və iqlim sabitliyinin qorunması prioritet hesab edilir. Bərpa olunan enerji siyasəti davamlı iqtisadi artım əsasında ekoloji balansın optimal tarazlıq nəticəsində formalaşır. Bərpa olunan enerjiyə təminatı, iqtisadi siyasətdə innovasiya nəticəsində mərhələli formada yeni bərpa edilən enerji tarazlığını ifadə edir. Bu proses kapitalın istehsal dövrüyəsi əsasında və investisiya siyasətinin tənzimlənməsi ilə maliyyə səmərəliliyində sosial-iqtisadi rifahı şərtləndirir. Yaşıl maliyyə siyasəti nəticəsində formalaşmış yaşıl maliyyə konsepsiyası ekoloji yönümlü layihələrin maliyyələşdirilməsi üçün alternativ maliyyə alətlərinin tətbiqini şərtləndirir. Yaşıl istiqrazlar, iqlim fondları və digər maliyyə alətləri vasitəsilə ekoloji layihələrin maliyyələşdirilməsi təmin edilir.

Davamlı iqtisadi artım anlayışı iqtisadi nəzəriyyənin müxtəlif mərhələlərində fərqli formada şərh edilmişdir. A. Marşal və digər tədqiqatçılar iqtisadi artımı əsasən kapital yığımı ilə əlaqələndirsə də, müasir dövrdə bu proses, sərvətin yenidən cəmlənməsi daha kompleks xarakterlidir (Marşal, 1993).

*Mövcud geosiyasi-iqtisadi şəraitə uyğun olaraq iqtisadi artımın əsas meyarları qeyd edilir:*
1. İnsan kapitalının tərəqqi zərurəti;
2. Maliyyə effektivliyi;
3. Dövlətin innovasiya siyasətinin insan tərəqqisində əhəmiyyəti və sosial rifaha təsiri ;
4. Dövlət və özəl sahənin əməkdaşlığı insan rifahına və sosial tərəqqini şərtləndirir.
5. İqtisadi artım yalnız kəmiyyət göstəriciləri ilə deyil, həm də iqtisadi siyasətin keyfiyyət meyarları ilə müəyyən edilir.

İqtisadi artımın davamlı xarakteri yalnız kəmiyyət göstəricilərinin artımı ilə deyil, iqtisadi siyasətin keyfiyyət meyarı ilə müəyyən edilir. Beləliklə, bərpa olunan enerji təminatının illərlə müqayisəli təhlili (cədvəl 1) təqdim edilir.

**Cədvəl 1**
*Qlobal enerji siyasətinin müqayisəli təsviri (milyard $)*

| İl | Fosil sektor | Bərpa olunan enerji | Yaşıl iqtisadiyyat |
|---|---|---|---|
| 2010 | 900 | 330 | 45 |
| 2016 | 955 | 475 | 113 |
| 2020 | 700 | 520 | 277 |
| 2025 | 659 | 627 | 519 |

*Mənbə:* Müəllif tərəfindən statistik məlumatlar əsasında tərtib edilmişdir.

Bərpa olunan enerji investisiyaları 2010–2025 dövründə təxminən bir qədər dəfə artmışdır. Yaşıl istiqraz və iqlim fondlarının əhatəliliyi maliyyə siyasətində yeni kapitalın formalaşmasına səbəb olmuşdur (Həbibbəyli, 2022). Kapital siyasətinin istiqaməti isə davamlı sosial-iqtisadi artımı şərtləndirmişdir.

Beləliklə, iqtisadiyyatın dövlət tənzimlənməsi əsasən davamlı sosial-iqtisadi rifah artımı ilə balanslaşır. İqtisadi qərarlar qəbul edərkən, dövlət bu qərarların siyasi-iqtisadi məqsədi maliyyə sabitliyi və alternativ maliyyə mənbələrinin intensivliyinin proqram təminatının tənzimlənməsi zəruridir (Nuriyev, 2021). Belə ki, iqtisadiyyatın tənzimlənməsi dövlətin mühüm funksiyalarından biri olmaqla, bazar iqtisadiyyatı şəraitində mənfi nəticələri aradan qaldırmaq, iqtisadi sferanı daha optimal idarə etmək və iqtisadi tərəqqini təmin etmək məqsədlərini özündə əks etdirir. Bu sahədə büdcə, bank sistemlərinin hüquqi, siyasi-iqtisadi sabitliyə təsiri ilə müəyyən edilir. Təbii ki, hüquq və iqtisadiyyat bir-biri ilə əlaqəli bir elm istiqamətdir. Belə ki, hələ qədim dövrdən hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqəsi ictimai inkişafın ümumi qanunauyğunluqlarına tabe olmaqla bir tərəfdən cəmiyyətin iqtisadi tələbatları obyektiv olaraq iqtisadi münasibətlərin tənzimlənməsinin hüquqi formalarının və müxtəlif mülkiyyət formalarının mühafizəsinə əsaslanırdı. Beləliklə, istehsalçıların müstəqilliyinin təmin edilməsinin zəruriliyi, digər tərəfdən iqtisadi münasibətlərin hüquqi forması ancaq ehtiyacdan ibarət deyildir, intensiv sosial-iqtisadi rifaha və siyasi-iqtisadi proseslərin vacib komponenti kimi səciyyələnir.

Davamlı iqtisadi artımın konseptual əsasları. Davamlı iqtisadi artım anlayışı iqtisad elminin müxtəlif mərhələlərində fərqli interpretasiyalara məruz qalmışdır. Bəzi iqtisadçılar iqtisadi artımı əsasən kapital yığımı ilə əlaqələndirmişlər. Lakin müasir dövrdə iqtisadi artım daha əhatəli kompleks xarakterə malikdir. Belə ki, neoklassik artım nəzəriyyələrində innovasiyalı tərəqqi iqtisadi artımın ekzogen amili kimi qəbul edilmişdir. Lakin müasir endogen artım nəzəriyyələri innovasiyalı iqtisadi sistemi formalaşdıran proses kimi qiymətləndirir.

*Mövcud davamlı iqtisadi artıma yanaşmalara əsasən sosial artımın əsas meyarları aşağıdakılardır:*

1. İnsan kapitalının keyfiyyət səviyyəsi,
2. Dövlətin innovasiya siyasətinin sosial rifaha təsiri,
3. Maliyyə təminatında effektik,
4. Dövlət və özəl sahənin əməkdaşlığı.

İqtisadi artımın davamlı artımı kəmiyyət meyarları ilə müəyyənləşmir, iqtisadi strukturun insan rifahının keyfiyyəti əsasında müəyyən edilir.

İqtisadiyyatın hüquqi tənzimlənməsinə müasir yanaşmalar. Bu kontekstdə, obrazlı qeyd etsək "İqtisadi fəaliyyət bir gəmiyə bənzəyir, sükanı idarə edən dövlətdirsə, yelkəni hərəkətə gətirən maddi maraqdır", iqtisadiyyat elmi davamlı sosial-iqtisadi artım rifahını şərtləndirir (Allahverdiyev, 2022).

İqtisadi fəaliyyətlər, istehsal münasibətlərindən istehlak münasibətlərinə qədər təkrar istehsalın bütün istiqamətləri əhatə edir və hüquq-siyasi münasibətləri də tənzimləyir. İqtisad elmi əsasən təbii ehtiyatlardan, istehsal vasitələrindən səmərəli istifadə etməklə, insanların rifahının ən optimal artımının təmin edilməsidir. Bu vəzifəni isə təkrar istehsalın bütün meyarlarına, istehsal, mübadilə və istehlaka dövlət dəstəyi əsasında reallaşa bilər. İqtisad elmi iqtisadi fəaliyyətin bütün sahələrini müşahidə edib araşdıraraq bazar iqtisadiyyatının təməl qanunlarını təyin etməyə çalışır. Yəni "olanı" daha doğrusu mövcud siyasi-iqtisadi şəraiti müşahidə edir və təyin edir. Bu səbəbdən də, fundamental elm sahə kimi iqtisad elmi tərəqqi mövqeindədir (Əlirzayev, 2022).

Belə iqtisadi sistemə 1960-cı ildə ictimai xərclərə dair araşdırmalar həm iqtisadi həm də sosial cəhətdən yüksək qiymətləndirilir. İctimai məsrəflər nəzəriyyəsinin məzmununda ən əhəmiyyətli məqamlar, haqsız rəqabəti şərh edir və sosial-iqtisadi artımı isə siyasi sabitliyin əsası hesab edir. Sosial-iqtisadi rifahın ən mühüm prinsip davamlı artım prinsipidir, əsas məqsəd isə "istehsal dəyərini" yüksəltməkdir (Əliyev, 2019). Beləliklə, qlobal iqtisadi siyasətin davamlı iqtisadi artım konsepsiyası müasir iqtisad elminin əsas tədqiqatını təşkil edir (Məmmədov, 2022a). Davamlı iqtisadi artım əsasən makroiqtisadi meyarların yüksəldilməsi deyil, eləcə də sosial rifah təminatının təşkili və ekoloji balansın qorunması ilə tənzimlənir.

Layihələrin idarə edilməsi isə iqtisadi tərəqqi strategiyalarının reallaşdırılmasının əsasıdır. Mövcud iqtisadi siyasətdə layihələrin idarə edilməsi strateji planlaşdırma əsasında operativ idarəetməni vəhdətdə ifadə edir. Əsasən inkişaf etməkdə olan ölkələrdə layihələrin idarə edilməsində iqtisadi modernləşmənin mühüm hesab edir.

Maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsasları. Əsasən makroiqtisadi sabitlikdə bərpa olunan enerji təminatı əsasında innovasiya yönümlü istehsalın formalaşmasını şərtləndirir. Belə meyarlar isə enerji idxalından asılılığı tarazlayır, tədiyə balansını sabitləşdirir, valyuta risklərini tənzimləyir (İsmayılov, 2021). Beləliklə, bərpa olunan enerji layihələri yeni iş yerlərini, davamlı iqtisadi artım əsasında innovasiyanı stimullaşdırır, istehsalın artımını həvəsləndirir.

Enerji təhlükəsizliyi qlobal geosiyasi risklər fonunda enerji mənbələrinin diversifikasiyası iqtisadi təhlükəsizliyin əsas komponentlərini əks etdirir. Bu kontekstdə bərpa olunan enerji təminatı alternativ mənbələrin vəhdətini şərtləndirir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin müqayisəli təhlili (cədvəl 2) qeyd edilir.

**Cədvəl 2**
*Bərpa olunan enerji investisiyalarının ölkələrlə müqayisəsi (2025)*

| Dövlətlər | Mənfəət |
|---|---|
| Azərbaycanda | 51,9 |
| Pakistan | 39 |
| ABŞ | 19 |
| Digər inkişaf etməkdə olan ölkələr | 22 |

*Mənbə:* Müxtəlif mənbələr əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrin iqtisadiyyatında dövlət fiskal siyasətdə investisiya həcmini artırır. Misal üçün, ABŞ kimi sənaye iqtisadiyyatının miqyas effekti və innovasiya üstünlüyü digər ölkələrlə müqayisədə daha çoxdur. İnkişaf etməkdə olan ölkələrdə isə əsas problem maliyyə resurslarının məhdudluğudur. Qlobal investisiya meyarları və kapital siyasəti. Beynəlxalq maliyyə institutları və özəl şirkətlər tərəfindən bərpa olunan enerji layihələrinə yönəldilən maliyyə vəsaiti əhəmiyyətli hesab edilir. Belə ki, inkişaf etmiş ölkələrdə iqlim yönümlü investisiyalar davamlı iqtisadi artımı təmin edir və fiskal riskləri tənzimləyir. Beynəlxalq təcrübədə effektivlik və fiskal siyasət əsas prinsipi xarici iqtisadi fəaliyyətdə sosial artıma yönəldilir.

**Cədvəl 3**
*2025-ci ildə Azərbaycanın dünya ölkələrilə xarici ticarəti (min. $)*

| № | Ölkələr | İxrac | İdxal | Dövriyyə |
|---|---|---|---|---|
| | **Cəmi** | **12.500.901,67** | **9.767.519,45** | **21.768.181,12** |
| | **MDB ölkələrində, cəmi** | **799.669,91** | **2.299.889,58** | **3.099.559,49** |
| | **Dünya ölkələrində cəmi** | **7.275.588,38** | **1.253.519,25** | **9.529.072,59** |
| 1 | ABŞ | 164.482,73 | 272.002,15 | 436.494,78 |
| 2 | Almaniya | 318.991,36 | 383.871,81 | 702.863,17 |
| 3 | Böyük Britaniya | 164.306,25 | 126.515,23 | 290.821,49 |
| 4 | Ukrayna | 105.215,01 | 144.608,18 | 249.823,18 |
| 5 | Pakistan | 155,25 | 9.375,19 | 9.543,55 |
| 6 | Nigeriya | 65.815,591, | 37,55 | 755,25 |
| 7 | Yaponiya | 9.399,94 | 162.257,55 | 171.657,49 |
| 8 | Türkiyə | 2.080.109,91 | 1.519.935,45 | 3.195.755,31 |
| 9 | Rusiya | 556.592,19 | 1.611.429,78 | 2.167.225,19 |
| 10 | Xorvatiya | 376.519, 55 | 3.922,97 | 379.583,19 |
| 11 | Fransa | 61.947,42 | 114.328,90 | 176.276,39 |
| 12 | Misir | 3.965,49 | 22.524,39 | 26.489,78 |
| 13 | Tacikistan | 5.519,55 | 529,77 | 2.937,19 |

*Mənbə:* DGK-in məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Belə şəraitdə dövlət maliyyə siyasəti vasitəsilə sosial məsrəfləri kompensasiya edir və maliyyə səmərəliliyində keyfiyyəti artırır. Bu kontekstdə maliyyə resurslarına laqeydlik və biganəlik sabitləşir, maliyyə səfərbərliyi nəticəsində sosial məsrəflər təmin edilir. Beləliklə, fiskal siyasət yalnız büdcə gəliri toplamaq məqsədi deyil, o, bazar tarazlığının sosial-iqtisadi rifahını tənzimləyir (Məmmədov, 2022a). Bərpa olunan enerji təminatında mövcud iqtisadi münasibətlər və yeni siyasi-iqtisadi, hüquq sistem davamlı sosial-iqtisadi tərəqqinin tənzimlənməsi əsasında sabitləşir.

Belə ki, ölkədə siyasi-iqtisadi fəaliyyət vətəndaş məmnunluğuna fokuslaşır. Maddi rifah artımı və sosial müdafiəsinin təminatı və daha mütərəqqi meyarları şərtləndirir. Beləliklə, dövlətin sosial-iqtisadi nailiyyəti əsasında cəmiyyətin hüquqlarının, qanuni maraqlarının ən ali təminatçısı və müdafiəçisidir. Dövlət həm də sabitliyə sosial-iqtisadi metodlarla təsir edir, ictimai tərəqqinin inkişafına şərait yaradır, iqtisadi münasibətlər sistemini təkmilləşdirir və bu münasibətləri tənzimləyir. Davud iqtisadi modelin istehsal meyarları kapital+siyasəti+innovasiya meyarları və hüquqi-siyasi amillərlə birlikdə şərh edir (Məmmədov, 2022a). Belə ki, qeyd edilən meyar istehsal funksiyaların artımı əsasında kapital və sərvətlə əlaqələndirir. Davud modeli istehsalı üç komponentdə strukturlaşdırır, tərəqqini şərtləndirən meyarlar, davamlı kapital artımı və hüquqi-siyasi iqtisadi qüvvə kimi sərvət əsasında. Təqdim edilən metod əsasında sosial-iqtisadi rifah formalaşır (Allahverdiyev, 2022). Dövlət iqtisadi siyasətində sosial rifah artımı, mülkiyyət hüquqlarının müəyyənləşməsində effektiv metoda üç əsas yanaşma mövcuddur. Maliyyə siyasətində fiskal model, sosial-rifah modeli, siyasi-iqtisadi model qeyd edilən prinsipləri əhatə edir. Belə maliyyə siyasətinin məqsəd dövlətin sahibkarlıq siyasəti və sosial sabitlik kontekstində elmi təhlili məqsədə uyğun hesab edir.

Dövlətin maliyyə siyasəti və bu istiqamətdə planlaşdırdığı iqtisadi tədbirlərin əsas məzmunu və məqsədi müxtəlif metodlar əsasında sosial rifah artımını təmin etməkdir. Beləliklə, inkişaf etmiş

ölkələrdə siyasi-iqtisadi bərabərlik iqtisadi sabitliyi şərtləndirir. Belə iqtisadi siyasət müəyyən prinsiplər əsasında, dövlət müəssisələrində və biznes mühitində sosial-iqtisadi münasibətlər sabitlik əsasında tənzimlənir. Mövcud şəraitdə dünyanın iqtisadi tərəqqisində ziddiyyətli məqamlar sosial-iqtisadi rifaha və siyasi sabitliyə problem kimi xarakterizə edilir ki, belə məsələlərin tənzimlənməsi isə xüsusi mülkiyyət əsasında mümkün olmur (Qənbərov, 2012). Belə problemlər isə dövlət tərəfindən siyasi-iqtisadi sabitliyin tənzimlənməsi əsasında formalaşır. Maliyyə tənzimləmə vasitələrinin qarşılıqlı nisbətini müəyyənləşdirən dövlətin normayaradıcı çoxnövlü fəaliyyəti, yəni sosial-iqtisadi və siyasi şəraitdə vətəndaş məmunluğu, insanların maddi rifah təminatının təşkilini şərtləndirir.

Davamlı iqtisadi artım nəticələri təhlilə əsasən bərpa olunan enerji siyasətinin nəticələri iqtisadi artımda keyfiyyətin təşkilini, ərzaq təminatının artımını, bu istiqamətdə maliyyə resurslarının səfərbər edilməsini şərtləndirir. Dünya ölkələrində müqayisəli iqtisadi siyasəti əsasən Asiya ölkələri, mühüm enerji mənbələri kimi dünya iqtisadiyyatında qlobal mövqeini qoruyur. Qlobal enerji investisiyalarının müəyyən hissəsi bu dövlətlərdən idxal edilir və burada idxal-ixrac, xarici yönələn investisiyanı gücləndirir (Nuriyev, 2021). Bu, Asiyanın sənaye və innovasiya üstünlüyünü, həmçinin iqtisadi effektini qeyd etməyə əsasdır. Şimali Amerikası stabil meyarı enerji investisiyalarında sabitdir, lakin artım tempi Asiyaya nisbətən aşağıdır. Bu, əsasən enerji bazarı və belə siyasətin daha əvvəl formalaşması ilə şərh edilir. İnkişaf etməkdə olan dövlətlərdə isə Latın Amerika əsasən Afrika dövlətlərinin gəlirləri hələ də minimaldır. Bu, investisiya şərtlərinin qeyri-sabitliyi, maliyyə sabitliyində qeyri-müəyyənliklər və sosial-iqtisadi siyasətdə problemlərlə əlaqədardır. Afrika kimi ölkələrdə enerji potensialı yüksək olmasına baxmayaraq investisiya siyasəti yetərli deyildir (Allahverdiyev, 2008). Beləliklə, ümumi iqtisadi şərait əsasən qlobal investisiyalar artımı ölkələrə nisbətən fərqlidir. Bu əsasən enerji gəlirlərinin artdığı halda, investisiyada isə hələ də həmin ölkələrdə qeyri-bərabərdir (İmanov, 2023). Amma Amerikada investisiya mühiti sabitdir, enerji siyasətində strateji layihələri mövcuddur.

**Cədvəl 4**
*Qlobal investisiya nisbəti (2025 proqnoz, %)*

| Dövlətlər | Qlobal (%) | Status |
|---|---|---|
| **Azərbaycan** | **51,9** | İnkişaf etməkdə olan |
| Asiya ölkələri | 49 | İnkişaf edən sənaye dövlətləri |
| Amerika | 13 | İnkişaf etmiş |
| Digər Asiya | 9 | İnkişaf etməkdə olan |

*Mənbə:* Müəllif tərəfindən statistik məlumatlar əsasında hazırlanmışdır.

Azərbaycan isə əsaslı enerji ixracatçısı olsa da, enerji sahəsində intensiv siyasət həyata keçirir. Bu, enerji ixrac modelinin əsas meyarları, davamlı fiskal sabitliyin gücləndirilməsinə xidmət edir. Azərbaycanda iqtisadi siyasətdə strateji mövqe əsasən külək enerjisi potensialını intensivləşdirmək və gələcəkdə investisiya layihələrinin artması planlaşdırılır.

Beləliklə, iqtisadi təsirin təhlili enerji sahəsinə yönələn kapitalın intensivliyi iqtisadi effektivliyi və ÜDM artımına təsir investisiya səmərəliliyi formalaşdırır (Məmmədov, 2022b). Tədiyə balansının tənzimlənməsi, enerji idxalının tarazlığı və xarici ticarətdə balansı sabitləşdirir.

Təhlil əsasən, Maliyyə resurslarının səfərbər edilməsi enerji təminatının əsas şərtidir. Davamlı iqtisadi sabitlik üçün enerji siyasəti strateji prioritet hesab edilir. Dövlət və özəl sahənin sosial-iqtisadi artımda əhəmiyyəti effektiv sosial rifaha əsaslanır (Marşal, 1993). Bu kontekstdə enerji təhlükəsizliyi, xarici asılılığı minimallaşdır və makroiqtisadi sabitliyi, davamlı sosial-iqtisadi artımda maliyyə effektivliyini tənzimləyir.

Maliyyə səmərəliliyi xarici effektlərin mikroiqtisadi problem kimi deyil, makroiqtisadi meyarlar kimi təhlili səciyəvidir. Bu, sosial rifah funksiyasında dövlət siyasətinin əsas meyarlarını qəbul edir. Beləliklə, Xarici iqtisadi fəaliyyətin sosial-iqtisadi rifaha təsiri dövlətin siyasi-iqtisadi səmərəliliyini təmin edir və fiskal alətlərin birgə tətbiqini zəruri edir. Belə müqayisə sosial rifah artımını şərtləndirir (Allahverdiyev, 2025). Xarici iqtisadi fəaliyyət effektivdirsə həmin ölkə sosial balansı tənzimləyir.

Davud hesab edir ki, xarici sərmayənin effektivi və resurslardan səmərəli istifadə müəyyən olduqda mülki iqtisadi siyasətin tərəqqi istiqaməti təşkil edilir. Beləliklə, siyasi-iqtisadi tərəqqidə davamlı sosial rifah intensivləşir və resursların iqtisadi dəyəri artır, xarici fəaliyyətin effektivliyi balanslaşır. Bu kontekstdə, mülkiyyət hüquqları siyasi-iqtisadi bərabərliyi təmin edilir və sosial məsrəflər daxili vəsait əsasında tənzimləyir. Bu meyarlar dövlətin bilavasitə fiskal müdaxiləsindən daha çox iqtisadi siyasətlə formalaşdırılmasına üstünlük verir.

Maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi əsasları. Maliyyə resurslarının səfərbər edilməsi iqtisadi sistemdə dövlətin və bazarın qarşılıqlı fəaliyyət meyarlarının əsas elementlərindən biridir. Bu proses fiskal gəlirlərin toplanması və milli iqtisadi təhlükəsizliyin, sosial sabitliyin və davamlı artımın təminatını şərtləndirir. İqtisadi elm maliyyə resurslarının səfərbər edilməsi üç əsas istiqamətdə, sosial rifah artımı və xarici iqtisadi fəaliyyət effekti, dövlətin iqtisadi tənzimləyici metoduna əsaslanır (Vəliyev, 2014).

Maliyyə səfərbərliyi sosial rifah funksiyası ilə əlaqəlidir. Bu kontekstdə dövlət məsrəfi əsasında sosial sabitlik təmin edilir və büdcə vəsaiti ilə iqtisadi balansın qorunmasına xidmət edir (Hacıyev, 2026). Fikrimizcə maliyyə səfərbərliyi siyasi-iqtisadi, sosial funksiyaları əhatə edir. Belə siyasi-iqtisadi fəaliyyət maliyyə resurslarının səfərbər edilməsində bazar iştirakçılarının hüquqi təminatı ilə əlaqəlidir.

Maliyyə resurslarının səfərbər edilməsinin iqtisadi funksiyaları. İnvestisiya təminatı, dövlət və özəl sahənin sosial rifaha formalaşdırır. Makroiqtisadi sabitlik, inflyasiya və büdcə balansının qorunmasını əhatə edir. İqtisadi təhlükəsizlik, davamlı iqtisadi rifahın maliyyə təminatını zəruri edir. Beləliklə, maliyyə resurslarının səfərbər edilməsi büdcə və qeyri-büdcəni əhatə edən iqtisadi siyasət, sabitliyi təmin edən sosial rifahdır.

**Nəticə**

Maliyyə resurslarının səfərbər edilməsi iqtisadi tərəqqinin sosial balansı və hüquqi sabitliyin qarşılıqlı təsiri nəticəsində formalaşan prosesdir. Effektiv fiskal siyasət sosial zərurəti müəyyən edir və mülkiyyət hüquqlarının təminatını şərtləndirir. İnkişaf etməkdə olan ölkələrdə davamlı sosial-iqtisadi rifah artımı əsasən xarici kapital və beynəlxalq maliyyə institutları vasitəsilə təmin olunur. Azərbaycan enerji iqtisadiyyatı, ənənəvi ixrac modelini qoruyur, eləcə də enerji iqtisadiyyatını kapital yönəldir. Maliyyə resurslarının səfərbər edilməsi enerji siyasətini intensivləşdirir və kapitalın daha məhsuldar istiqamətlərə yönəldilməsini təmin edir. Beləliklə, enerji siyasəti inkişafı qlobal iqtisadiyyatın davamlı artım modelini əks etdirir. Qlobal iqtisadi sistemdə enerji siyasətinin tərəqqisi ekoloji və kapitalın artımı ilə xarakterikdir. Enerji və ərzaq təhlükəsizliyi iqtisadi siyasətdə sabitliyi təmin edən sosial müdafiənin əsası kimi səciyələnir. Maliyyə resurslarının artırılması sosial-iqtisadi zərurətdir və bu proses qlobal maliyyə sistemində yeni siyasi-iqtisadi reallıqların formalaşmasına səbəb olur.

**Ədəbiyyat**

1. Allahverdiyev, D. İ. (2022). *Dünya iqtisadiyyatı: İqtisadi mənafelər, mövcud reallıqlar və perspektivlər*.
2. Allahverdiyev, D. İ. (2025). *Azərbaycanın xarici iqtisadi fəaliyyətində səmərəliliyin təşkili*.
3. Allahverdiyev, H. B. (2008). *İqtisadi dövlət tənzimlənməsi*.
4. Əlirzayev, Ə. Q. (2022). *İqtisadi tərəqqi və idarəetmənin əsasları*.
5. Əliyev, İ. H. (2019). *İnkişaf məqsədimizdir*.
6. Hacıyev, İ. M. (2026, 22 yanvar). *Elm və şəxsiyyətin vəhdəti*. *Xalq qəzeti*.
7. Həbibbəyli, İ. Ə. (2022). *Dövlət siyasətinin əsasları*.
8. İmanov, N. M. (2023). *İqtisadiyyatın liberallıq potensialı*.
9. İsmayılov, M. H. (2021). *Azərbaycanın iqtisadi mənafeyi*.
10. Marşal, A. (1993). *Siyasi iqtisadın prinsipləri*.
11. Məmmədov, N. İ. (2022a). *Geosiyasətə giriş*.
12. Məmmədov, N. İ. (2022b). *Geosiyasətə giriş* (II cild).
13. Muradov, Ş. M. (2021). *Azərbaycan Respublikasının demoqrafik inkişafı*.
14. Nuriyev, Ə. (2021). *Regional siyasətin əsasları*.
15. Qənbərov, F. Ə. (2012). *Xarici iqtisadi əlaqələr və iqtisadi artım*.
16. Vəliyev, D. (2014). *Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası*.